# *Gaşbin İdrees ALİ:*
# "COP29-dan gözləntilərim qlobal miqyasda qəbul olunan qərarların yerinə yetirilməsidir"

"COP29-dan gözləntilərim qlobal miqyasda qəbul olunan qərarların yerinə yetirilməsidir. Bütün dünyada iqlim dəyişikliyi ilə mübarizədə ehtiyac duyulan maliyyənin miqdarı artırılmalıdır. Düşünürəm ki, həssas ölkələrlə bu cür olmayan ölkələrdən fərqli davranıla bilər".

Bu sözləri İraqın yerli "Əssəd" təşkilatının həmtəsisçisi və prezidenti Gaşbin İdrees Ali söyləyib.




İqlimlə bağlı layihələr üçün çoxlu dəstək və vəsaitin qazanılmalı olduğunu diqqətə çatdıran qonaq bununla bağlı müzakirələrə şərait yaratdıqlarına görə COP29-un təşkilatçılarına minnətdarlığını bildirib.

"Biz öz dizaynlarımızı, layihələrimizi və ideyalarımızı COP29-da nümayiş etdiririk. Düşünürəm ki, bununla biz iqlimlə bağlı qlobal fəaliyyət səylərinə dəstək verə bilərik", - deyə o əlavə edib.

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.10.